# Siyasi Dustağın Yeriş Qaydası

**Xəlil Rza Ulutürk**

© Uzun sürən gənclik. 1994.

Qarşıda bir paqonlu,
arxada bir paqonlu,
Sən gedirsən ortada
Buxovsuz, ya buxovlu.
Biləklərin zəncirli
olmasa da, olsa da,
Zəncirli saymalısan
cüt qolunu arxada.
Qızıl köynək geymişəm
ürəyimin odundan.
Amma dustaq olmağım
çox vaxt çıxır yadımdan.
Bu dəm paqon əhlinin
tükənir hövsələsi:
—Əllər arxaya doğru.—
yüksəlir qəzəb səsi.
Elə bil ki, yatmışam,
oyanır xumar ağlım.
Pəncərələr, qapılar,
darvazalar da bağlı.
Bir quş da səkə bilməz
burda, ey dili-qafil.
Burda iynə gözündən
gəlib keçir dəvə, fil.
Kvadrat şəkillidir
burda günəşin özü.
Barmaqlıq xanasından
göndərirlər gündüzü,
Katyanın "K" biçimli
dördmərtəbə məhbəsi[1].
Bir heç görmək istəyir
caynağında hər kəsi.
Gözətçilə dustağın

---

[1] Moskvada Lefortovo zindanının əsas tikintisi hələ XVll əsrdə ll Yekatirina tərəfindən başa çatdırılmış, yeni dövrdə həmən məhbəs təkmilləşdirilmiş və SSRİ DTK-nın izolyatoruna çevrilmişdir.

burda qisməti eyni:
Sənin qolun bağlanıb,
onun idrakı, beyni.
Əlləri azad ikən,
ruhu zəncirlənən var.
Sayı üç yüz milyona
Yaxınlaşan bu diyar.
Qıra biləcəkmidir
qollarından qandalı?
Gözlərindən pərdəni,
ya da bom-boş xəyalı?
Qolun bağlanmasına
bəlkə də dözmək olar.
Görün hələ nə qədər
beyni iflic olan var.
Dünyaları gəzirkən
öz yerində sayan var.
Gecə-gündüz danışan
min-min gəvəzə lal var.
Keçid rəsmindən keçir
marş öyrədən topallar.
Bir yefreytora dəyməz
marşallar, admirallar.
Rəssam. Çək bu lövhəni
Maraqlı mənzərədir:
Qul gözətçi önündə
Azad bir dustaq gedir.

Moskva, Lefortova zindanı,
17 mart 1990.

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Səkinə İsgəndərova
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: aprel, 2004